Daşlar

***

Özünü dərk edib duyduğu gündən
İnsan taleyini "daşa bağlayıb".
Təşnə dodaq üçün axıb dərindən,
Bulağın gözüylə daşlar ağlayıb.

Hələ ömr edəndə mağaralarda
İnsana daş balta silah sayılıb.
Deyirlər nə qədər eldə, diyarda
Daşa yaman demək günah sayılıb.

İnsan özu qurub daş zindanları,
İnsan özu yıxıb daş məhbəsləri.
İnsan daş bütləri, hökmranları
Ucaldıb, uçurub illərdən bəri.

Daş var – bu torpaqda sərhədə dönub,
Baisi olubdur qəm-kədərin də.
Daşlar Qobustanda şöhrətə dönüb,
Daşlar yetim qalıb Xudafərində.

Daş insan oğlunun evi, otağı,
Öləndə buz rəngli məzarı olub.
Daşlar dəyirmanda elin dayağı,
Heykəldə bir xalqın vüqarı olub.

Daşlar bünövrədə olaydı möhkəm,
Pıtılı, kövrəyi kaş olmayaydı.
İnsan sinəsində ancaq deyirəm:
Urəyin yerində daş olmayaydı.

BULAQ ADƏTİ

Bulağın gözünə daş tıxasan da
Başqa göz tapacaq, axıb gələcək.
Dunyanın əşrəfi olan insan da
Bulaq adətini götürsün gərək.

Susmasın, ağzına daş basılsa da,
Sözünü udmasın, desin hünərlə.
Bununçün boğazdan o asılsa da
Bir gün yad olunar xatirələrlə.

Yolun yarısından dönməsin geri,
Sözünü kəsməsin heç vaxt yarıda.
Sevmirəm yarımçıq söz deyənləri,
Yolun yarısında qalanları da.

Yarıda qalsaydı mübarizələr
Dunya öz yerində indi sayırdı.
Səsini kəssəydi Qaliley əgər
İndi Yer kürəsi "fırlanmayırdı".

Nəsimi "dəlilik" eləməsəydi,
Yarımçıq qalsaydı "coşub-daşması",
Bütöv bir "ənəlhəq" söyləməsəydi
Ölərdi insanın allahlaşması.

Fərhad tişəsiylə dağ yarmasaydı
Cılız görünərdi böyük məhəbbət.
Daşı dırnaq-dırnaq qoparmasaydı
Ali mərtəbəyə qalxmazdı zəhmət.

Saysız meteordan, saysız daşlardan
Qaqarin çəkinib, dönsəydi geri –
İndi biz deyildik ərşə hökmran,
Rahatca gəzmirdik indi göyləri.

Daşlarla nə qədər üzləşib insan
Bəlkə sınaq üçün yaranıb daşlar!
Ağıza basılan, yola atılan
Bu dünya üzündə nə qədər daş var.

Bulağın gözünə daş tıxasan da
Başqa göz tapacaq, axıb gələcək.
Dünyanın əşrəfi olan insan da
Bulaq adətini götürsün gərək.

ÇAY DAŞLARI

Daim düşünürəm çay daşlarını:
Sabuntək sürüşkən, məxmərtək hamar.
O daşlar bülluru, göz yaşlarını,
Yaqutu, zümrüdü xatırladırlar.

Saymaqla qurtarmaz rəngi, çeşidi,
İstəsən aylarla sındır başını.
O adam hünərli, igid kişidi, –
Üzünü göstərsin bir çay daşının.

Sahildən-sahilə çırpdıqca sellər
Sürtülüb, itirib əzəl şəklini,
Sanki cilalayıb onları əllər,
Sanki bütövlənib tingəsi, tini.

Hər yanı sifətdir, üzdür büsbütün,
Saymaq bu üzləri – əmri-mahaldı.
Sürtük çay daşları nədənsə bu gün,
Çoxsifət bir şəxsi yadıma saldı.

DAŞ QALAĞI

Qədim Fərqanədən azca aralı
Şahi-Mərdan adlı kiçik bir kənd var.
Şahi-Mərdan çayı səsli-havalı
Onun ətəyində axar, çırpınar.

Sahildən-sahilə sürtər üzünü
Anamı itirmiş bir ahu kimi.
Bir dərdin şahidi sanar özünü
Axsa da dağlardan adi su kimi.

Çayın sahilində daş qalağı var,
Bənzəyir bu qalaq kiçik ehrama.
Bir zaman atılıb həmin bu daşlar
Şerə, musiqiyə, təbə, ilhama.

Daşlar çopur-çopur, həndir-hamardır,
Daşlarda izi var qurumuş qanın.
Daşlarda bir qatil görkəmi vardır,
Daşlar yarasıdır Özbəkistanın.

"Daşqalaq olunsun Həmzə Niyazi!" –
Verildi baharda bu qara fitva.
Dedilər: "Düşməndir bizə Niyazi!"
Həm də bu sözləri xalq dedi guya.

Xalq bunu oğluyçün deməz heç zaman,
Bunu molla dedi, ya işan dedi.
Bu sözü bir ovuc xalqını satan,
Lakin xalq adından danışan dedi.

Xalqın əli qalxmaz durub daş atsın
Öz şair oğluna, bəstəkarına,
Əlləri şairin qanına batsın,
Gəlib daş yağdırsın öz vüqarına.

O hansı xalqdır ki, dili var gələ
"Satqın, xalq düşməni" deyə şairə.
Tarix belə bir xalq tanımır hələ,
Siz baxın illərə, qərinələrə.

Fitva verilmişdi...
Atıldı daşlar,
Yağdı yaz gününün yağışı kimi.
Öldü bir kommunist, şair, bəstəkar
Dodağı nəğməli qu quşu kimi.

Şair bir yaz günü daşqalaq oldu,
Lakin oyilmədi şair vüqarı.
Bu, xalqın köksündə çarpaz dağ oldu,
Xalq yığıb saxladı həmin daşları.

Saxladı bir qəmli hekayət kimi
Zümrüd sahilində Şahi-Mərdanın.
Durur əfsanəli həqiqət kimi
Daşlanmış ürəyi Özbəkistanın.

YOL ÜSTÜNƏ DÜŞƏN DAŞ

Çəkir xəyalımı, çəkir fikrimi
Qədim yunanların əfsanələri.
Həmin əfsanələr ulduzlar kimi
Qeyb olur, görünür illərdən bəri.

Burulğana düşən talaşa kimi
Batır bu tərəfdə, çıxır o yanda.
Hələ neçəsi də tamaşa kimi
Gah səhnədə dinir, gah da ekranda.

Əsrlər dalından ucalır səsi,
Bircə yol eşitsə hər kəs – bəsidir.
Qədim yunanların daş əfsanəsi
Elə lap bu gün də ibrət dərsidir.

El yolu üstünə düşən bir daşa
Neçəsi toxunub, yıxılıb yerə.
Neçəsi kənardan edir tamaşa,
Baxır yerə dəyib əzilənlərə.

Kiminin sıyrılır dizi, dirsəyi,
Kiminin qanayır ayağı, başı.
Kəndin nə cavanı, nə ağbirçəyi
Götürüb atmayır kənara daşı.

Hamı da deyinir:
– Belə iş olar,
Kim atıb bu daşı yolun üstünə?
Köməyə çatmayıb bu giley-güzar,
İnsanlar toqquşub yıxılır yenə.

İnsanlar yıxılır...
Zaman keçirdi,
Artırdı yıxılan, qol-qıçı sınan.
O yoldan bir qərib insan keçirdi,
Bu canlı lövhəni gördü nagəhan.

O giley etmədi. Qol çirməyərək
Sürüdü sal daşı yoldan kənara.
El yolu göründü ovuc içitək.
Sonra o, üz tutdu dayananlara.

Söylədi: – Heyrətə düşdünüz niyə?
Durub baxırdınız daşa qatarla.
Qalxmaz ortalıqdan heç bir maneə
Sözlə, yalvarışla, giley-güzarla.

Gərək çirməyəsiz qollarınızı –
Uşaq da, böyük də, qız da, qarı da.
O zaman daş nədir, yollarınızı
Kəsəmməz Olimpin allahları da!

MEHDI DAŞLARI

Xəzərin Mərdəkan sahillərində
Bu gün də görünür həmin o daşlar.
Balıqlar karvanla üzür dərində,
Dayazda daşlaşmış bir xatirə var.

O bura gələrdi əlində tilov;
Daşlara bağlayan onu nə idi?
Eyninə gəlməzdi nə balıq, nə ov;
Bunların hamısı bəhanə idi.

Etina etməzdi yağan qara da,
Burda qarşılardı neçə baharı.
Elə o zamandan bu daşlara da
Belə ad verdilər: Mehdi daşları.

Özü dayansa da bu qayalıqda,
Xəyalı uzaqda yelkən açardı.
Onun qırmağına düşən balıq da
Çox zaman ağzını cırıb qaçardı.

Kiçiyi düşəndə tilova hərdən
Özü buraxardı: "yaşa" deyərdi,
Qanı qaralanda onun şəhərdə
Burda öz dərdini daşa deyərdi.

Bəzən də göz ilə qaş arasında
Dilsiz əsrlərə o at sürərdi.
Həmişə özüylə daş arasında
Qəribə yaxınlıq, dostluq görərdi.

Oxusan taparsan daş söhbətini
Bu gün "Abşeron"da, qızıl "Səhər"də.
"Qara daşlar"ın da hekayətini
Deyirlər başlayıb elə bu yerdə.

Onun çox dəyişkən xisləti vardı,
Bəzən alışardı, bəzən sönərdi.
Gördü ki, bir nadan çox baş apardı
Köksündə ürəyi daşa dönərdi.

Görsəydi ayağa salınır sənət,
Görsəydi söz gəldi şerin adına –
Onu tərk edərdi güzəşt, mərhəmət,
O saat minərdi qəzəb atına.

Köksünə odlu dağ bassaydılar da
Kəsməzdi belə bir vaxtda dilini:
Gətirib boğazdan assaydılar da
Atası Əliylə oğlu Əlini.

Ən yaxın həmdəmdi bu daşlar ona,
Burda tək qalardı xəyallarıyla.
Burda yanaşmazdı sirdaşlar ona
Həyatın əsrarlı suallarıyla.

Burda açılardı çöhrəsi, eyni,
Uşağa dönərdi burda, uşağa.
Burda tanımazdı Mehdi Hüseyni,
Bu yerdə olardı o, "Mehdi qağa"

Fikirlər gəzərdi çatıq qaşında,
Görərdin başqa bir aləmə vardı.
Bir fındıq beyinli fındıqbaşın da
Dərdini bu yerdə o, unudardı.

Onun tanrısıydı söz sənətimiz,
O, "mənim" deməzdi, "bizim" deyərdi.
(Yazıqlar olsun ki, lap bu gün də biz
Sağalda bilmirik bu qara dərdi.

Mənə ver, deyirdik, hər nə var, mənə,
Hər nə var, deyirik qoy mənim olsun.
Xalq deyib, kim girir xalqın cibinə,
Ona Mehdi ruhu qoy qənim olsun!)

...Daşlara baxıram, həmin o daşlar...
Düşüb pərən-pərən sınıq qoşuntək.
Daşlar səksəkədə, daşlar intizar...
Elə bil bu saat Mehdi gələcək...

İNAMIN DAŞ HEYKƏLİ

İllərin dumanlı xatirəsindən
Yenə kəndimizə qayıtmışam mən.
Qayıdıb gəlmişəm bura daş kimi,
Gəlmişəm əbədi vətəndaş kimi.
Saldat çəkmələrim qapqara daşdan,
Şinelim, kəmərim qapqara daşdan.
Daşdandır silahım, əsgər papağım,
Daşdandır gözlərim, əlim, ayağım.
Düşüb pyedestaldan yerisəm əgər,
Bu daş addımımdan torpaq titrəyər.
Adlayır önümdən kənd camaatı,
Sürünü, naxırı, maşını, atı
Sürüb aparırlar qarşımdan mənim.
Baxın, yaşıdımdır o çoban mənim...
Kənddə deyərdilər ona qurd Alı,
Gör necə ağarıb saçı, saqqalı.
Yəqin haqlayıbdır yaşı səksəni,
Fəqət qocalmağa qoymur daş məni.
Bax, o da lal Cəbi, o da dul Bahar,
Bu kənddə hamının bir ləqəbi var.
Ancaq ləqəbinə uyuşmur heç kəs.
Niyə uydurublar bu adları bəs?

Biri bu lal Cəbi –
dünyanı gəzsən
Onuntək danışan tapa bilməzsən.
Amma adına bax!
Ya da dul Bahar –
Evi var, ori var, uşaqları var,
Bəs niyə veriblər ona bu adı?
Burda ad verirlər: tutdu-tutmadı.
O da nar Bikədir,
hanı narlığı?
Gedib gözəlliyi, bəxtiyarlığı.
Mən ona "gülöyşə narım" deyərdim,
O vaxtın sözüylə "yarım" deyərdim.
Bir eşq, bir məhəbbət yaşadır hərə.
Nar Bikə bağlanıb daşa, mərmərə.
O gəlir yanıma hər axşam, səhər,
Hələ bu çiçəklər, bu tər çiçəklər!..
Əli çatmasa da bu gün əlimə
İnamla bağlanıb daş heykəlimə.
Mən daş gözlərimlə baxıram indi;
Tanıya bilmirəm bizim bu kəndi.
Kövrək bir cavandım burdan gedəndə,
Dönüb qara daşa gəlmişəm kəndə.
Ovaxtkı körpələr cahıllaşıbdır,
Mənim yaşıdlarım ahıllaşıbdır.
Hələ neçəsi də dəymir gözümə...
Hərdən söyləyirəm özüm-özümə:
"Daş heykəl olmusan vüqarlı, uca,
Bəlkə yoldaşların çevrilib tunca?
Bəlkə da qalıblar uzaq diyarda?
Bəlkə uyuyurlar adsız məzarda?
Bəlkə bu yüksəklik, ucalıq sənə
Verilib onların xatirəsinə?
Onların son sözü, andı, səsisən,
Sal daşa çevrilmiş iradəsisən?
Bəlkə sən onların təbəssümüsən?

Onların rəmzisən, təcəssümüsən?.."
Burdan Berlinədək gedib nizamla,
Beş il vuruşdular onlar inamla.
Qılınctək kəsəndə boran, şaxta, qar,
Bir gün yaz gələcək-inanırdılar.
Qəfil yaxaladı düşmənlər bizi...
Neçə kəndimizi, şəhərimizi
Tərk edib geriyə çəkiləndə də
Onlar son zəfərə inanırdılar.
Zülmət yağış kimi töküləndə də
Günəşli səhərə inanırdılar.
Siz də, əzizlərim, inanın siz də –
Hər nə itirsəniz – ürəyinizdə
İnamı qoruyub saxlayın ancaq,
Böyük faciədir inamsız olmaq!..
İllərin dumanlı xatirəsindən
Çıxıb,
kəndimizə qayıtmışam mən.
Daşdan yonulsa da mənim abidəm,
Odlu, keşməkeşli yola şahidəm.
Eh, nələr çəkmədik bu yollarda biz!
Fəqət inam oldu müsafirimiz.
Sanma heykəltəraş əməliyəm mən,
Böyük bir inamın heykəliyəm mən!

MƏZAR DAŞLARI

Dinləyin, daşlar da dilə gəlibdir:
Deməyin duyğusuz məzar daşıyıq.
Bizim taleyimiz belə gəlibdir,
Ölü bir aləmin "vətəndaş"ıyıq.

Bizim daş bacımız, daş qardaşımız
Toylu, təbəssümlü binalardadır.

Bizimsə buzlayıb daş yaddaşımız,
Bilmirik səadət, sevinc hardadır.

Bizim əcdadımız, o daş nəslimiz
Qədim qalaların hörgüsündədir.
Yalnız matəmlərin şahidiyik biz,
Bu dərd boynumuzda ağır kündədir.

Yaraya bilərdik biz də bir işə,
Döşənə bilərdik yollara barı.
Bu daş sinəmizdən bizim həmişə
Adlayıb keçərdi insan qatarı.

Bizdən heç olmasa bir toyuq hini,
Bir qoyun qəhəli tikmək olardı.
Biləndə nəyəsə gərəkliyini
Elə zənn edirsən qış da bahardı.

Bizim yoldaşımız artır ilbəil,
Belə qalmalıyıq ömrümüz boyu.
İnsan saf daşları binaya deyil,
Nədənsə məzarın üstünə qoyur.

Yenə ləyaqətli, təmiz kişinin
Qəbrinə qoyulsan, dərdin yarıdı.
Yadına salarsan onun işini,
Deyərsən: – Nə olar, haqqı var idi!

El üçün yanardı səməndər kimi,
Şərəfdir onunçün başdaşı olmaq.
Yaşadı ər kimi, öldü ər kimi,
Xoşdur beləsiylə yanaşı olmaq.

Eh, belə olsaydı, nəydi dərdimiz!
Deyərdik, lazımıq, burda dururuq.
Deyərdik, gələcək nəsillərə biz
Hörmətli bir adı tanıtdırırıq.

Bəzən tüfeylinin, acgöz zəlinin
Qəbri tapşırılır bu yerdə bizə.
Adı yer üzündən silinməlinin
Adı həkk olunur daş köksümüzə.

Deyirsən, axı, bu, sağlığında da
Tapdardı kiminsə ləyaqətini.
İnsan məzarda da, qılınc qında da
Hökmən alsın gərək öz qiymətini.

Biz bütün dərdlərdən burda halıyıq,
Heç nə yayınmayır daş gözümüzdən.
Ancaq beləcə də biz qalmalıyıq,
Bezib incisək də öz-özümüzdən.

Bu gün daş qəlbimiz dilə gəlibdir,
Deməyin duyğusuz məzar daşıyıq.
Bizim taleyimiz belə gəlibdir,
Ölü bir aləmin "vətəndaş"ıyıq.

BƏNNA İLƏ SÖHBƏT

Ay usta, o daşı hörmə binaya,
Gözüm su içməyir o daşdan, deyim.
O bütün binanı verər fənaya,
Qoy sənə sözümü bu başdan deyim.
Daşın çürüyünü, safını gör ki,
Xəcil eləməsin sonradan hörgü.
Daşlara bənzəyir, usta, insan da,
Hər kəs öz yerinə qoyulmayanda
Bənzəyir o sənin çürük daşına,
Min bəla gətirir elin başına.
Sonra bir müdriklik etsə də hər kəs,
Onun nöqsanını düzəldə bilməz.
Bir daşı quyuya salır bir dəli –

Onu çıxardammır vüz aqil əli.
Kar aşmır sonrakı tələşdan. deyim,
Qoy sənə sözümü bu başdan deyim.

Usta, göz qoyursan belələrinə: –
Üzməyi bacarmır – gedir dərinə.
Burnundan uzağı görə bilməyir –
Dərsi alimlərə vermək istəyir.
Yerdə ayıq maşın sürə bilməyir –
Göydə "Tu-104"-ü sürmək istəyir.
Yazıqlar olsun ki, bəzən sürür də,
Qəzaya uğradır sərnişinləri.
Bəzən alimlərə o dərs verir də,
Bürüyür adamı xəcalət təri.
Gətir qulağını, yavaşdan deyim,
Qoy sənə sözümü bu başdan deyim.
Biz uşaq deyilik... nə sən, nə də mən.
Ay usta, keçmişik keşməkeşlərdən.
Biz saflı-çürüklü daşlar görmüşük,
Todbirli, tədbirsiz başlar görmüşük.
Tacını qızıldan biçməli başlar,
Sabunlu kəndirə keçməli başlar.
Sısqa tonqal kimi sönməli başlar,
Günəşlə yanaşı durmalı başlar.
Bir futbol topuna dönməli başlar,
Pele təpiyiylə vurmalı başlar.
Baş – hamar yolu da müdam əyirsə,
Eli bəlalara sürükləyirsə –
Bir kəlik yaxşıdır o başdan deyim,
Qoy sənə sözümü bu başdan deyim.
Ay usta, o daşı hörmə binaya,
Gözüm su içməyir o daşdan deyim.
O bütün binanı verər fənaya,
Qoy səno sözümü bu başdan deyim...

DAŞLI QİTƏLƏR

Əzsin ayağımı qoy daşlar mənim,
Düşmən köhləninə minən deyiləm.
Qoy yağsın başıma yağışlar mənim,
Günəş tonqalıyam, sönən deyiləm.

Qışda təsəllini az verin mənə,
Bir yaşıl yarpaqlı yaz verin mənə,
Bir özüm nəğməli söz verin mənə,
Alın nəyim varsa, dinən deyiləm.

Bu ana yurdumun hər qarışında
Çanlı tarixi var çansız daşın da.
Mən də daşlaşaram el yaddaşında,
Əriyib torpağa dönən deyiləm.

Sınayın ən ağır zamanda məni,
Qoyun Qaracatək* sapanda məni,
Atın, ulduzlara çatanda məni
Endirmək istəsəz – enən deyiləm,

Arxada əsrlər, qarşıda illər,
Sabahda ümidlər, dünəndə kədzr.
Üfüqlər alışır, açılır səhər –
Mən həmin səhərəm, dünən deyiləm.

***

Sən olasan mənimlə kaş,
Kim deyir ki, bezərəm?
Döşəyim daş, yastığım daş
Olsa belə, dözərəm...

*"Dədə Qorqud" qəhrəmanı Qaraca çoban

Üşümərəm qışda, qarda
Dağda, düzdə, səhralarda.
Tələtümlü dəryalarda
Qəvvas kimi üzərəm.

Qövr etsə də qanlı yaram
Sal daşlara iz salaram.
Qraniti ovxalaram,
Əllərimlə əzərəm.

Adım qopsa dodağından,
Daş asılsa ayağımdan
Qalxıb ölüm yatağından
Mən arxanca gəzərəm.

***

Daşdan yaza-yaza elə bilməyin
Soyuq daşa dönüb ürəyim mənim.
Bunu yaxşı bilir yaxın da, yad da:
Daim daşdan çıxıb çörəyim mənim.

Daşlar yara açıb bəzən üzümdə,
Daşlarla qanayıb mənim dizim də.
Dünyanın Femida tərəzisində
Daşla çəkilibdir əməyim mənim.

Soyuq daş oduna qızanda çanım
Daşlar insan kimi olub həyanım,
Gah silahım olub, gah da qalxanım,
Daim daşlar olub gərəyim mənim.
Əsiri olmadım dövlətin, varın,
Axı, nəyi yoxdu bizim diyarın?!
Əli kəsilsəydi talançıların
Qızıldan olardı dirəyim mənim.

***

Daş atdım – su ləpələndi,
Halələndi, halələndi.
Üzük-üzük haləyə bax,
İstəyirsən al, nişan tax.
Haləyə bax, günəş kimi
İsindirir ürəyimi.
Haləyə bax, qaval-qaval
Götür sevgi rəqsini çal.
Görünmür halələr indi,
Sanki sular ütüləndi –
Gözüm dörd oldu, dörd oldu.
Sanki sular dondu birdən –
İz qalmadı halələrdən,
Mənə dərd oldu, dərd oldu.

DAŞ VƏ SU

Səfərə çıxanın dalınca bəzən
Daş da tullayırlar, su da atırlar.
Bu daşlar, bu sular neçindir görən?
Yəqin hərəsinin öz mənası var.

Suyu atırlar ki, getdiyin yerdən
Uğurla qayıdıb evə çatasan.
Daşı atırlar ki, sən bu səfərdən
Bir də dönməyəsən,
itib-batasan.

Mənim də dalımca bu vaxta qədər
Neçə daş atılıb...
Yığsan dağ olar.
Mənim də dalımca su atıb əllər,
Xəzəri daşdırar həmin o sular.

Daşlar "tilsimini" qırmışam fəqət,
Salamat dönmüşəm səfərdən yenə.
Çox zaman özüm də etmişəm heyrət
Neçün toxunmayıb bir zaval mənə?!

Neçün dəf etmişəm azar-bezarı?
Görünür, o sular dadıma çatıb.
Daşı yadlar atıb...
Axı, suları
Anamın əlləri, gözləri atıb!..

1978-1979

Səndən uzaqda

1. HƏSRƏT

Səndən uzaq düşdüyüm gün
Ən dəhşətli bir gün idi.
Şadlıq, sevinc, nəşə – bütün
Ürəyimdən sürgün idi.

Tapdadıqca ayaqlarım
Avropanın sinəsini,
Söyləyirdi dodaqlarım
Acı həsrət nəğməsini.

Bu həsrətin yolu uzun,
Bu həsrətin yaşı azdı,
Hansı ürək yurdumuzun
Həsrətiylə tutulmazdı?!

Saçlarıma dən düşsə də
Oldum ana uşağı mən.
Göz cənnətlə görüşsə də,
Andım doğma torpağı mən.

Vətənindən aralanmış
İnsanları yada saldım.
Ürəyimdə boranlı qış
Sanki matəm marşı çaldı.

Bir görümlük çiçək gəzdim –
Olsun Muğan çiçəyi o,
Bir udumluq külək gəzdim –
Olsun Bakı küləyi o.